# Qurban bayramınız mübarək


# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 33-34 (1029) 16-29 avqust 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


# Abşeron Logistika Mərkəzi ölkəmizin iqtisadi tərəqqisinə böyük töhfədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa olunan Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib.

Prezident İlham Əliyev Abşeron Logistika Mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.

Abşeron Logistika Mərkəzinin direktoru Ziya Ağayev görülən işlər barədə dövlətimizin başçısına məlumat vermiş, bildirmişdir ki, mərkəzin inşasına 2017-ci ilin aprelində başlanılıb. Tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Bu mərkəz vasitəsilə Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı planlaşdırılır.

Abşeron Logistika Mərkəzi bütün xidmətləri təklif etməklə vaxta qənaəti və xərclərin azalmasını təmin edir.

Müəssisə ilk mərhələdə 28 hektar ərazidə dəmir yolu və avtomobil yollarının qarşılıqlı əlaqəsini təmin edərək logistika xidməti göstərməyə başlayacaq. İkinci mərhələdə isə 35 hektar ərazi üçün layihə hazırlanıb. Bu mərhələnin yekunlaşmasından sonra Logistika Mərkəzi həm Azərbaycanın, həm də Qafqazın coğrafi logistik inkişafına, həmçinin ölkəmizin iqtisadi tərəqqisinə böyük töhfə verəcək.

Mərkəz vahid gömrük məntəqəsi kimi qəbul olunub. İdxal, ixrac və tranzit gömrük əməliyyatları ərazidə yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir.

Logistik xidmət tərəfdaşlarının əməkdaşlığı məhsuldarlığı və səmərəliliyi daha da artıracaq. Mərkəzin yaradılmasında əsas məqsəd ən müasir üsullarla müştərilərin istəklərini təmin etməkdir. Bunun üçün bütün xidmətlər "vahid pəncərə" sistemi ilə bir nöqtədən təmin olunur. Müəssisədə ümumilikdə 350 nəfər işlə təmin edilib.

Vurğulandı ki, Abşeron Logistika Mərkəzində 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və ən müasir texnikalar xidmət göstərəcək. Mərkəzdə yük maşınları üçün 200 yerlik park yaradılıb, dəmir yolu körpüsü və avtomobil yolları inşa edilib. Burada üçmərtəbəli gömrük, inzibati və müştəri xidmətləri binası, həmçinin giriş-çıxışa nəzarət, texniki, ictimai obyekt binaları inşa edilib.

Mərkəzdə 6-sı qatar qəbulu, 2-si konteyner, 2-si açıq yük və 2-si anbar sahələrinə boşaltma və yükləmə xətləri olmaqla, ümumilikdə 12 kilometer uzunluğunda dəmir yolu xətti var. Müəssisədə illik yükaşırma qabiliyyəti 3,5 milyon ton olan terminal vasitəsilə idxal, ixrac və tranzit yüklərin daşınması da icra olunacaq.

Abşeron Logistika Mərkəzinin əsrlər boyu mədəniyyətləri və qitələri birləşdirən tarixi İpək yolunun mərkəzində yerləşən paytaxtımızın Lökbatan qəsəbəsi ərazisində inşa edilməsi xüsusilə əhəmiyyətlidir. Mərkəzin ərazisi ticarət, logistika və sənaye zonalarının kəsişməsində və nəqliyyat şəbəkələrinin mərkəzində yerləşir.

Bu mühüm infrastruktur obyektinin Bakı-Tbilisi-Qars, İran-Astara-Bakı, Rusiya-Yalama-Ələt dəmir yolu marşrutları ilə əlaqəsi var. Bakı-Tbilisi-Qars dəmir yolu tam gücü ilə fəaliyyətə başladıqdan sonra bu mərkəz vasitəsilə qonşu ölkələrlə idxal-ixrac əməliyyatlarını, eləcə də Azərbaycan ərazisindən multimodal yük daşımalarını daha çevik yerinə yetirməyə imkan yaranacaq.

# TANAP Türkiyənin təbii qaza olan tələbatının 10%-dən çoxunu təmin edəcək



Trans-Anadolu (TANAP) təbii qaz boru kəməri Türkiyənin təbii qaza olan tələbatının 10 faizdən çoxunu təmin edəcək.

Bu barədə Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Alparslan Bayraktar deyib.

Onun sözlərinə görə, iki qardaş ölkə - Azərbaycan və Türkiyə, eləcə də qonşu Gürcüstan regionun inkişafı, rifah və dinclik üçün belə böyük layihənin həyata keçirilə bilinəcəyini bütün dünyaya nümayiş etdirdilər: "TANAP rekord sayıla biləcək müddətdə tamamlanıb. İyunun 12-də isə Azərbaycan və Türkiyənin ev sahibliyi ilə istismar müddəti 49 il olan TANAP istifadəyə verilib. TANAP Türkiyənin enerji təhlükəsizliyinə töhfə verəcək və enerji təchizatı mənbələrinin şaxələndirilməsinə də köməkçi olacaq".

TANAP ilə tarixdə ilk dəfə Azərbaycan təbii qazının Avropa ölkələrinə çatdırılacağını deyən A.Bayraktar bildirib: "Bundan başqa, TANAP Türkiyənin bölgədəki strateji əhəmiyyətini daha da artıracaq. Türkiyənin təbii qaza olan tələbatının 10 faizdən çoxunu təmin edəcək TANAP boru kəməri mənbələri şaxələndirmək baxımından da xüsusi əhəmiyyət kəsb edir".

"TANAP boru təminatı, tikinti və mühəndislik kimi sahələrdə də Türkiyə iqtisadiyyatına böyük töhfələr verib. Layihənin icra edilməsi enerji təhlükəsizliyi və məşğulluğun təmin edilməsi ilə yanaşı, boru kəmərinin keçdiyi bölgələrdə əhaliyə dəstəyin göstərilməsinə də səbəb olub. Layihənin icrası zamanı ətraf mühit, səhiyyə, heyvandarlıq və təhsil kimi sahələrdə çox əhəmiyyətli investisiyalar reallaşdırılıb", - deyə nazir müavini əlavə edib.

Qeyd edək ki, TANAP layihəsi üzrə Faza-0, yəni Türkiyəyə ilk kommersiya qazının tədarükünə iyunun 30-dan başlanılıb. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz nəql olunacaq. Daha sonrakı üç il ərzində bu həcm 6 milyard kubmetrə çatdırılacaq. TANAP-ın inşası üzrə ümumi işlərin isə 94,8 faizi icra olunub. Layihə üzrə kapital xərcləri 8 milyard dollardır. İndiyədək 5,5 milyard dollar xərclənib.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və Avropaya nəql edəcək TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşəcək. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir. Kəmərin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur. TANAP-ın səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi "Botaş"a, 12 faizi isə BP şirkətinə məxsusdur.


PAŞA Bank

Azərbaycan xalqını Qurban bayramı münasibəti ilə təbrik edir!

# Ziyad Səmədzadə: Xəzər sülh, təhlükəsizlik dənizi olacaq

Müsahibimiz akademik, Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadədir.

***- Ziyad müəllim, bildiyiniz kimi, avqustun 12-də tarixi hadisə baş verdi - Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya imzalandı. İllərdir ki, bu məsələdə heç cür razılığa gəlmək mümkün olmurdu, bəzi dövlətlər əsaslı-əsassız iddialar irəli sürürdü, ancaq sonda, nəhayət ki, razılığa gəlmək mümkün oldu və məlum Konvensiya ortaya qoyuldu. Bu hadisəni və onun gələcək perspektivlərini necə dəyərləndirirsiniz?***

-Doğrudan da, bu, çox böyük tarixi, siyasi və iqtisadi hadisədir. 5 nüfuzlu dövlət başçısının bu məsələdə razılığa və bir aya gəlməsi, Konvensiyanı imzalaması nəinki Xəzəryanı dövlətlərin, bütövlükdə regionun və dünyanın xeyirinə, onun təhlükəsizliyinə və əmin-amanlığına doğru atılan nəcib bir addım, töhfədir. Çünki bu gün dünyada çox ciddi hadisələr, siyasi, iqtisadi, hərbi, diplomatik qarşıdurmalar, kataklizmlər yaşanır. Bir problem başa çatmamış digər və daha ciddi, təhlükəli problem, proses yaşanır. Bəzən olub-bitənləri belə ərtaflı düşünməyə, anlamağa, təhlil etməyə imkan, fürsət olmur. Odur ki, dünyanın qarışıq dönəmində beş nüfuzlu dövlətin və onların liderlərinin belə bir addım atması, dünyaya xoşməramlı mesaj verməsi çox önəmli və çox təqdirəlayiqdir. Bildiyiniz kimi, sənədin imzalanmasından sonra da dövlət başçıları bəyanatlarla çıxış etdilər və bir daha region, dünya üçün önəmli mesajlar səsləndirdilər. Azərbaycan Prezidenti cənab İlham Əliyev də bəyanatında sənədin önəminə diqqət çəkərək vurğuladı ki, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması tarixi əhəmiyyətli sənəddir. O, bəyan etdi ki, Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi bu sənədin imzalanmasına öz töhfəsini verib. Möhtərəm Prezidentimiz İlham Əliyevin sözlərinə görə, Konvensiya imzalanana qədər də qurulan ikitərəfli və çoxtərəfli münasibətlər Xəzərin təhlükəsizlik, sabitlik dənizinə çevrilməsinə nail olunmasına gətirib çıxarıb və Xəzərdə sabitliyin, təhlükəsizliyin qarantı olub. "Xəzəryanı ölkələr arasında yüksək səviyyədə əməkdaşlıq, etimad və qarşılıqlı fəaliyyət mövcuddur və bu, təhlükəsizliyin və sabitliyin başlıca qarantıdır", - deyərək cənab prezident fikirlərini tamamladı.

Həmçinin, İran Prezidenti Həsən Ruhani, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Xəzərin hüquqi statusuna dair Konvensiyanın imzalanmasının əhəmiyyətinə toxunaraq, onun ölkələr arasında gələcək əməkdaşlığa daha mühüm töhfələr verəcəyini bildirdilər.

Yəni, bunlar onu deməyə imkan verir ki, bu Konvensiya 5 Xəzəryanı dövlətin təhlükəsizliyinə, sabitliyinə, inkişafına, birgə əməkdaşlığına töhfə olmaqla yanaşı, dünyanın qarşılıqlı şəkildə bir-birini anlamasına, dünyanın təhlükəsizliyinə də töhfə olacaq. Maraqlı bir məqam kimi, onu da nəzərə çatdırım ki, Konvensiyanın imzalanması avqustun 12-nə təsadüf edən Beynəlxalq Xəzər Günü ilə üst-üstə düşüb. Bunun özü də, elə bilirəm ki, xoş bir təsadüfdür və anlamlıdır.

***- Dövlət başçısının da qeyd etdiyi kimi, Azərbaycan məlum Konvensiyanın hazırlanmasının bütün mərhələlərində konstruktiv rol oynayıb və digər Xəzəryanı ölkələr kimi bu sənədin imzalanmasına öz töhfəsini verib. Odur ki, bir iqtisadçı, Xəzərlə bağlı məsələlərdə iştirakı olmuş bir şəxs kimi, Azərbaycanın bu prosesdə rolunu necə qiymətləndirərdiniz?***

-Azərbaycan bu prosesdə daim müsbət və konstruktiv rol oynayıb. Hər zaman Xəzərin sülh, təhlükəsizlik, əməkdaşlıq, tərəfdaşlıq dənizinə çevrilməsi üçün əməli addımlar atıb, prosesə öz töhfəsini verməyə çalışıb. İstər dövlət başçısı, mərhum Heydər Əliyevin dönəmində, istərsə də onun siyasətinin layiqli davamçısı, cənab İlham Əliyevin son 15 illik hakimiyyəti dövründə Xəzəryanı dövlətlərlə ən üst, ən yüksək səviyyələrdə münasibətlərin qurulması, əməkdaşlıq, tərəfdaşlıq üçün gərəkən bütün addımlar atılıb. Eyni zamanda, bu prosesin, bu fəaliyyətin tərkib hissəsi olaraq, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi üçün nələr lazımdırsa edilib, yəni Azərbaycan heç zaman bu məsələdə qeyri-konstruktivlik nümayiş etdirməyib, hansısa dövlətin maraqlarına toxuna biləcək addımlara, davranışlara yol verməyib, daim səmimi mövqe sərgiləyib.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək görüşündə də ölkəmizin bu məsələdə necə böyük rola malik olduğunu söylədi və "bugünkü görüş və nəhayət, bu Konvensiyanın imzalanması çox mühüm hadisədir. Xatırlayıram ki, Heydər Əliyev bunun üzərində çox güclü işləyib. Mən düşünürəm ki, indi o, bizim nəhayət, bu Konvensiyanı imzalamağımıza, bu çox mühüm məsələni həll etdiyimizə görə çox şad olardı", -deyə bəyan etdi. Bunlar yuxarıda deyilənlərin bir daha əyani sübutu və təsdiqidir.

Yəni, indi çox sevindirici və əlamətdar haldır ki, ölkəmizin də yaxından iştirakı və töhfəsi ilə bu proses, yəni 1992-ci ildən Xəzərin hüquqi statusu barədə Konvensiya ilə bağlı sahil dövlətlərinin ikitərəfli və çoxtərəfli görüşləri öz məntiqi yekununa yaxınlaşıb, fərqli yanaşmalar bir kənara qoyulub və nəticədə məlum Konvensiya imzalanıb.

Xatırladım ki, Azərbaycan tərəfi uzun illər ərzində Xəzərin beynəlxalq hüquqi normalar çərçivəsində ədalətli bölgüsünü və "qazan-qazan" prinsipini təklif etsə də, müəyyən süni maneələr, əngəllər yekun statusla bağlı razılaşma əldə edilməsinə imkan verməyib. Sənəd üzərində iş 1996-cı ildən aparılıb. 2003-cü il mayın 14-də Astanada Azərbaycan, Rusiya və Qazaxıstan arasında "Xəzərin dibinin orta xətt üzrə milli sektorlara bölünməsi, su səthinin ümumi istifadəsi" haqqında üçtərəfli saziş imzalanıb və tərəflər Xəzərin dibinin bölünməsinə dair yekun razılığa imza atıblar.

Həmçinin, 2010-cu ildə Xəzəryanı ölkələrin dövlət başçılarının Bakıda keçirilmiş III Zirvə toplantısı ölkələrimiz arasında sıx əməkdaşlığın möhkəmləndirilməsi işinə mühüm töhfəsini verib. Həmin Zirvə toplantısında regionda təhlükəsizliyin və sabitliyin qorunub saxlanılması baxımından mühüm əhəmiyyət daşıyan "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb. Orada ilk dəfə konseptual olaraq suverenlik və balıqçılıq zonaları yüksək səviyyədə razılaşdırılıb. Sammitdə, həmçinin Xəzəryanı dövlətlərin Xəzər dənizində əməkdaşlığının əsas prinsipləri müəyyənləşdirilib. Bu prinsiplər isə dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörməti, Xəzərin sülh, mehriban qonşuluq və dostluq zonasına çevrilməsini ehtiva edir. Qeyd edilməlidir ki, həmin prinsiplər imzalanmış "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"da da öz əksini tapıb.

Ümumiyyətlə, Konvensiya layihəsi yekun olaraq Xəzəryanı ölkələrin XİN rəhbərlərinin 4-5 dekabr 2017-ci il tarixində Moskvada keçirilən müşavirəsində razılaşdırılıb. Eyni zamanda, 2018-ci il martın sonunda İran Prezidenti Həsən Ruhaninin Bakıya səfəri zamanı imzalanmış Xəzər dənizində müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumu bugünkü Konvensiyanın razılaşdırılması yolunda mühüm tarixi əhəmiyyət daşıyan sənəd olub.

Odur ki, bu Konvensiyanın imzalanmasında digər Xəzəryanı dövlətlərin, onların rəhbərlərinin yüksək rolunu qeyd etməklə bərabər, eyni zamanda, bu prosesin bu cür məntiqi sonucla yekunlaşmasında Azərbaycanın, o cümlədən, ölkə prezidenti cənab İlham Əliyevin böyük rolunu, qətiyyətini, iradəsini də vurğulamaq gərəkdir. Bəlkə də Azərbaycan bu prosesdə fəal və aktiv, eyni zamanda, səmimi və konstruktiv rol almasaydı, bu proses hələ bundan sonra da uzun illər davam edər, uzanar, yekun nəticə əldə olunmazdı. Məhz Azərbaycanın və ölkə prezidentinin bu prosesə töhfəsi məlum Konvensiyanın imzalanmasına gətirib çıxardı. Azərbaycan bununla bir daha dünyaya nümayiş etdirdi ki, o, bütün səmimi, konstruktiv əməkdaşlıq, tərəfdaşlıq əlaqələrinə, münasibətlərinə açıqdır, şəffafdır, onunla zor, təhdid dilində danışmaq işə yaramır və yaramayacaq. Çünki artıq Azərbaycan 90-cı illərin əvvəllərinin zəif, gücsüz Azərbaycanı deyil, Azərbaycan dünyada sözü və nüfuzu olan güclü, çəkili bir dövlətdir.

***- Rusiya Prezidenti Vladimir Putin öz bəyanatında bildirdi ki, yaxın gələcəkdə Xəzər İqtisadi Forumu yaranacaq...***

-Bu, hələlik bir ideyadır və onun baş tutub-tutmayacağı gələcək proseslərdən asılı olacaq. Ancaq hesab edirəm ki, bu, xoşməramlı bir ideyadır və burada da qorxulu, təhlükəli, Xəzəryanı dövlətlərin iqtisadi, siyasi təhlükəsizliyinə toxunacaq bir məqam yoxdur. Bəzən hansısa bir ideya səsləndirilərkən, düşünüb-düşünmədən bəziləri çox səbatsız şəkildə onu başqa yerə yozmağa cəhd edirlər ki, bu da nəticə etibarı ilə proseslərə mənfi təsir göstərir. Yadınıza gəlirsə, MDB ilə bağlı məsələdə də əsassız hay-küylər, ajiotajlar yaradılmışdı, guya ki, bu qurum başqa çətir, ad altında keçmiş SSRİ-nin bərpasıdır və sairə... Amma ötən 27 il bunun heç də belə olmadığını göstərdi. Kimlərinsə hansısa niyyətləri, məqsədləri ola bilər, bu, istisna deyil, amma əsas nəticədir. Nəticə də ondan ibarətdir ki, digər MDB ölkələri kimi, Azərbaycan da ötən 27 il ərzində müstəqil dövlətçilik və müstəqil inkişaf yolundadır, dünyanın hətta lider dövlətləri sırasında öncül mövqelərdədir. Odur ki, hər hansı bir ideyaya, hər hansı bir məsələyə, əməkdaşlıq təklifinə tələm-tələsik, qeyri-praqmatik münasibət bildirmək olmaz. Hər şeyi zamana və axarına buraxmaq lazımdır.

Ancaq vacib olan odur ki, regionumuzda, bütövlükdə dünyamızda təhlükəsizlik, sabitlik olmalıdır və hər bir dövlət də bu prosesə əməli töhfə verməlidir. Azərbaycan da müstəqil dövlət kimi hər zaman dünyanın təhlükəsizliyinə və sabitliyinə əməli addımları ilə töhfələrini verib və verməkdədir. Bu siyasət bundan sonra da davam etdiriləcək, heç bir qüvvə Azərbaycanı bu yoldan döndərə bilməyəcək. Bu, mümkünsüzdür.

**Müsahibəni hazırladı: Kamil**







# Ərzaq bolluğu sağlam qidalanmanın və uzunömürlülüyün rəhnidir

Ölkə əhalisinin ərzaqla təmin olunması hər zaman dövlət başçılarının, hökumət rəhbərlərinin ciddi diqqət yetirdiyi ən vacib məsələ olmuş və bu gün də olmaqdadır.

Hər bir ölkənin ərzaq təhlükəsizliyi dedikdə, onun iqtisadi təhlükəsizliyinin ən mühüm və həlli vacib olan sahəsi başa düşülür və bütün dövlətlərin iqtisadi siyasətinin ən başlıca istiqamətlərindən biri kimi diqqət mərkəzindədir.

*Ərzaq təhlükəsizliyinin təmin edilməsi nə üçün bu qədər vacib və əhəmiyyətlidir?*

İnsan dünyaya gəldiyi ilk gündən ərzaqla təmin edilir: Tanrı onu yaşamaq, həyatda qalmaq, böyümək üçün ilk günlərdən əvəzolunmaz təbii qida - ana südü ilə təmin edir. Lakin bəlli zaman keçdikcə insanın fiziki inkişafı və bioloji tələbatlarının ödənilməsi üçün lazımi qida maddələri ilə təmin olunması başlıca məqsədə çevrilir. Əslində hərtərəfli qidalanma fərdin sonrakı sağlam yaşamının təməlini qoyan, normal fizioloji inkişafını təmin edən, gələcək yetkinliyinə təkan verən prosesdir. Sağlam ali varlıq isə sağlam nəsil, qənaətbəxş əhali sayı və təbii artım, tükənməyən işçi qüvvəsi, davamlı iqtisadi inkişaf, iqtisadi artım, fəallıq, bir sözlə, ölkənin iqtisadi inkişaf səviyyəsinin əsas göstəricilərindən biridir. Məhz buna görə də ərzaq təhlükəsizliyi hər bir dövlətin iqtisadi inkişafının, iqtisadi siyasətinin prioritet istiqaməti kimi hər zaman mühüm əhəmiyyət kəsb etməlidir.

Hər bir canlı varlıq özünəməxsus qidalanır: insanların min illər boyu təkamül prosesində təbiətin bəxş etdiyi nemətlərdən necə, hansı yollarla, nə qədər, nə zaman yararlanması əsrlərlə formalaşmış, illərin təcrübəsi, müşahidələri nəinki alimlərə, elə insanın özünə də çox şeyi öyrətmişdir.

Əhalinin fəal şəkildə öz həyat fəaliyyətini davam etdirməsinə əsas verən, fizioloji normalara əsaslanaraq təhlükəsiz və sağlam qida məhsulları ilə təmin olunması ölkənin ərzaq təhlükəsizliyi adı altında ümumiləşdirilir. Elm və texnologiyalar tərəqqi etdikcə ölkələrin iqtisadi inkişaf səviyyəsi qeyri-bərabər şəkildə dəyişir. Bundan başqa, dünya ölkələrinin hər birində müxtəlif coğrafi iqlim şəraiti, təbii resursları, əhalinin sıxlığı, demoqrafik problemləri etibarlı ərzaq təminatında müəyyən çətinliklər yaradır. Kənd təsərrüfatına yararlı sahələrin azalması və ya onların mövcudluğu şəraitində onlardan digər məqsədlər üçün istifadə edilməsi, eləcə də güclü sənayeləşmə, urbanizasiyanın doğurduğu problemlər bu məsələnin uğurlu həllinə maneələr törədir. Təəssüf ki, bu gün də davam edən siyasi və hərbi münaqişələr, məcburi miqrasiyanın yaratdığı təsirlər ərzaq təhlükəsizliyinin təmin olunmasında bir sıra çətinliklər və qeyri-bərabərliklər yaradır. Tədqiqatlar göstərir ki, inkişaf etmiş ölkələr bu problemin həll edilməsinə nail olsalar da, inkişaf etməmiş ölkələrdə ərzaq təminatının kifayət qədər olmaması müşahidə edilməkdədir. Bu ölkələrdə kənd təsərrüfatında mövcud problemlərin baş verməsi, suvarma sistemlərinin qeyri-qənaətbəxş olması, müasir texnologiya və infrastrukturların çatışmazlığı, təhsil və məşğulluğun aşağı səviyyəsi nəticəsində əhali gəlirləri gündəlik, aylıq qidalanma normalarına əməl etməyə imkan vermir. Bu zaman insanlar məcburiyyət qarşısında qalaraq, nəinki gündəlik fizioloji qidalanma normalarına riayət etmir, bəzən də acından ölməməkçün keyfiyyətsiz, sağlamlıq üçün təhlükəli sayılan ərzaq məhsullarına üz tutur, onlarla qidalanmaq məcburiyyətində qalırlar. Bu isə gələcəkdə onların səhhətində mütləq şəkildə özünü büruzə verir. Hələ üstəlik yaşadığımız əsrdə ekoloji durumun yaratdığı təhlükələrin, texniki vasitələrin atmosferə buraxdığı zərərli maddələrin, qlobal istiləşmənin fəsadlarının sağlamlığa vurduğu ciddi ziyanı da nəzərdən qaçırmayaq. Bunlar azmış kimi, dünya əhalisini ərzaqla təmin etmək məqsədilə yaradılmış geni dəyişdirilmiş məhsulların getdikcə artan istehsalı, 3-cü dünya ölkələrində satılması gələcək nəsillərin sağlamlığına ciddi zərbə vurur.

Keyfiyyətli və təhlükəsiz, ekoloji təmiz qida məhsulları ilə təmin olunma hər bir vətəndaşın haqqıdır. Bu məsələlər müəyyən qədər qanunvericilikdə də öz əksini tapmışdır. Bu baxımdan hesab edirik ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli “Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsinə böyük təkan verəcəkdir.

*Ərzaq bolluğunun təmin edilməsinin sağlam qidalanma üçün əhəmiyyəti danılmazdır.*

Bir çox hallarda ifrat dərəcədə qidalanma piylənmə, ürək-damar xəstəlikləri, şəkərli diabet və bu kimi başqa xəstəliklərin inkişafına yol açır. Müasir ədəbiyyatlarda sağlam qidalanma dedikdə, məsələyə kompleks yanaşma başa düşülür. Şübhəsiz, bura ilk növbədə keyfiyyətli və fizioloji normalara əsaslanan, yaş, cins, məişət və iş şəraiti nəzərə alınmaqla qidalanma, vaxtında və balanslaşdırılmış, ərzaq məhsullarının lazımi miqdarda istehlak edilməsi nəzərdə tutulur.



*Dietoloqlar hesab edirlər ki, düzgün və rasional qidalanmaya riayət edilməsi insanın normal həyat fəaliyyətini və onun uzunömürlülüyünü təmin etmiş olur.*

Müasir tibbi ədəbiyyatlarda insanın fiziki və fizioloji tələbatlarını ödəmək üçün lazım olan əsas komponentlər: yağ, zülal, karbohidratlar, eləcə də vitaminlər və mikroelementlər hesab edilir. Onların hər biri insan orqanizmi üçün vacib funksiya yerinə yetirir, orqan və sistemlərin normal fəaliyyətini tənzimləyir, bioloji və fizioloji proseslərin normal getməsini təmin edir. Onların qəbul vaxtı, miqdarı, bir-birinə uyğunlaşması haqda bəzi yeni fikirlər, yeni meyillər yaransa da, insan orqanizmində bu maddələrin rolu danılmazdır. Qidanın tərkibində bu vacib komponentlərin çatışmazlığı və ya əksinə, artıqlığı orqanizmdə bir çox fəsadlar yaratmış olur.

Son zamanlar yer üzündə əhalinin həyat tərzi qloballaşma və urbanizasiya prosesləri ilə əlaqədar dəyişdikcə, şişman insanların da sayı artmaqda davam edir. Mütəxəssislər hesab edirlər ki, bu hal təkcə həddindən artıq qida qəbulu, hərəkət fəaliyyətinin azalması ilə deyil, daha çox cəmiyyətin həyat tərzindəki qlobal dəyişikliklərlə izah olunur.

Müasir həyatda avtomatlaşmanın məişətimizə möhkəm daxil olaraq dərin kök salması, hətta sağlam qidalanma fonunda da öz mənfi təsirini göstərir. Vaxtilə insanın öz rahatlığı, əl əməyini yüngülləşdirmək üçün icad etdiyi qurğular, texniki vasitələr indi onun bir növ düşməninə çevrilib desək, yanılmarıq. Fiziki aktivliyin azalması, əzələ fəaliyyətinin aşağı düşməsi isə sağlam qidalanma fonunda belə insan orqanizmində fizioloji proseslərin normal getməsinə mane olur, müəyyən müddətdən sonra öz izini qoyur.

BMT-nin məlumatlarına əsasən, qida çatışmazlığına məruz qalanların sayı hələ 1980-ci ildə 920 milyon olduğu halda, 2000-ci ildə 799 milyona enmişdir. Müasir dünyada insanlar arasında aclıqdan ölənlərdən çox ürək-damar, şəkərli diabet, xərçəng xəstəliklərindən vəfat edənlərin sayı artır. Artıq çəki bu xəstəliklərin inkişafına, gedişinə və ağırlaşmasına təkan verir. Hazırda ABŞ piylənmə problemi olan ölkələr arasında ön sıradadır. Lakin Avropa ölkələrinin çoxu, Avstraliya, Asiya, inkişaf etmiş Latın Amerikası ölkələri də buna yaxınlaşır. Piylənmə ilə qeydə alınanların sayı QİÇS-lə qeydə alınanların sayından dəfələrlə çoxdur. Piylənmənin müalicəsi isə alkoqolizm və siqaretlə mübarizədən daha baha başa gəlir. Əsasən ucuz qidalanma nəticəsində baş verən piylənmə ABŞ-da əlilliyin əsas səbəbi sayılır.

Bəzi analitiklər hesab edirlər ki, artıq çəki probleminin geniş vüsət almasına səbəb insanın əvvəllər vərdiş etmədiyi məhsulları qəbul etməsidir. Cəmiyyət özünün tarixi inkişaf dövründə müxtəlif mədəniyyətlər, yerli təbii şəraitlə və imkanla əlaqədar fərqli qidalanma sistemini yaratmışdır. Qloballaşma və urbanizasiya prosesləri isə planetin əhalisinin həyat tərzinə mənfi təsirlərindən birini bu formada göstərir. Mütəxəssislər hesab edirlər ki, qida istehsalçılarının əsas məqsədi daha çox mənfəət əldə etməkdir. Ona görə də onlar daha çox ucuz məhsul istehsal edirlər ki, bu da öz növbəsində qeyri-sağlam qida məhsullarının ifrat dərəcədə artmasına gətirib çıxarır və nəticədə bunu əldə edən insanların sağlamlığında öz əksini tapır.

2013-cü ildə artıq çəki və piylənmə problemi ilə üzləşən 5 yaşa qədər uşaqların sayı 42 milyon olmuşdur. Bu isə gələcəyin xəstə insanı deməkdir.

Dünya əhalisinin əksər hissəsi ölüm səbəblərinin daha çox piylənmə və artıq çəki problemi təşkil etdiyi ölkələrdə yaşayır. Piylənmə problemi hər il dünya iqtisadiyyatına 2 trilyon dollara başa gəlir. Buraya sağlamlıqla bağlı xərclər və əmək məhsuldarlığının enməsi nəticəsində yaranan itkilər daxildir. Məsələn, ABŞ-da piylənmə problemi ildə 663 milyon dollar ziyana səbəb olur.

2014-cü ilin məlumatlarına görə, 18 yaş və ondan yuxarı 1,9 milyard insanda (39%) artıq çəki problemi mövcud olmuşdur ki, onlardan 600 milyonu (13%) piylənmədən əziyyət çəkmişdir. "The Lancet" jurnalının verdiyi proqnozlara görə, 2025-ci ildə Yer üzündə əhalinin 20%-i piylənmədən əziyyət çəkəcək.

*Piylənmə və aclıq bir çox xəstəliklərə yol açır.* Bu da sağlamlığın məhdudlaşması, hətta itirilməsi ilə bərabər, istehlak xərclərində səhiyyə xərclərinin xüsusi çəkisinin artması ilə müşayiət olunur. Səhiyyə xidmətlərinin gündən-günə artdığı şəraitdə bunun nə demək olduğu hər kəsə aydındır. Dünya Bankının son məlumatlarına görə, əgər əvvəllər piylənmə və artıq çəki problemi gəlirləri yüksək olan ölkələrdə daha çox təsadüf olunurdusa, indi nisbətən aşağı və orta gəlirli sayılan ölkələrdə bu təhlükə qarşısında qalan uşaqların sayı 30% çoxdur. Belə ki, onların sağlamlığına, qəbul etdiyi qida məhsullarının tərkibinə lazımi diqqət yetirilmir, idmanla məşğul olmurlar.

***BMT-nin hesablamalarına görə, bu gün dünyada milyonlarla insan aclıqdan əziyyət çəkir.***

Kifayət qədər qidalanmama cəmiyyətə çox baha başa gəlir və bu fonda bir sıra xəstəliklərin baş qaldırması müşahidə edilir ki, bu da ağır fəsadlarla müşayiət olunur.

Təxminən 2 milyard əhali normal həyat üçün zəruri olan vitamin və mineral maddələrin çatışmazlığı problemini yaşayır.

***“Təbii fəlakətlər, hərbi münaqişələrin artması nəticəsində Yer üzündə aclıq çəkən insanların sayı 2 il ərzində 55% artaraq 124 milyona çatmışdır”.***

Bu fikir BMT Təhlükəsizlik Şurasının builki iclasında səsləndirilmişdir. Avropa İttifaqının ƏKTT və Dünya Ərzaq proqramının birgə bəyanatında qeyd olunmuşdur ki, 51 ölkənin 124 milyon əhalisi kəskin ərzaq çatışmazlığı ilə üz-üzədir, onların humanitar yardıma ehtiyacları var. İki il bundan əvvəl bu rəqəm 80 milyon idi. BMT-nin məlumatlarına əsasən, bu insanlar Suriya, Yəmən, Somali, Sudan, Konqo, Myanma, Nigeriyada baş verən hərbi münaqişələr və həmçinin təbii kataklizmlər nəticəsində bu qədər artmışdır. Aclıq və münaqişələr arasında əlaqə o qədər sıxdır ki, bu da ərzaq təhlükəsizliyinin pozulmasına gətirib çıxarır. Nəticədə, qeyri-stabillik və gərginlik baş verir ki, bu da öz növbəsində zorakılıq yaradır.

BMT-nin Dünya Ərzaq proqramının direktoru Devid Bisli insanları bu müharibələrə son qoymağa və təhlükələrə reaksiya verməyə, hökumət və qeyri- hökumət təşkilatlarını insanların müharibələr və aclıq üzündən əziyyət çəkdiyi yerlərdə güclü iqtisadiyyatın inkişafı, o cümlədən etibarlı ərzaq təminatı üçün qüvvələri səfərbər edərək birləşməyə çağırmışdır.

Ölkələr arasında iqtisadi əlaqələrin durmadan artması, inteqrasiya proseslərinin sürətlənməsi ərzaq təhlükəsizliyinin həlli problemini ölkə səviyyəsinin hüdudlarından çıxararaq daha geniş məna kəsb edir. Bu baxımdan dövlətlər nəinki öz ölkələrində bu məsələni həll etmək, əhalinin ərzaqla təminatını yaxşılaşdırmaq, eləcə də bəşəriyyət səviyyəsində ərzaq təhlükəsizliyinin təmin olunmasına çalışmalıdırlar.

**Aytən Səmədzadə,**
**“İqtisadiyyat” qəzetinin baş redaktoru, i.ü.f.d.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Pambıqçılığın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir

*Biz kənd təsərrüfatının müxtəlif sektorlarını, ilk növbədə pambıqçılığı inkişaf etdirməliyik. Çünki pambıq elə məhsuldur ki, onun üçün bazar axtarmağa ehtiyac yoxdur.*

*İlham Əliyev*

Pambıq əməköməcikimilər fəsiləsinə aid olan, çoxillik, isti və işıq sevən texniki bitkidir. Vətəni əsas olaraq Hindistan olan bu bitki burada hələ eramızdan 3 min il əvvəl əkilmişdir. Pambığın Misirdə becərilməsi haqqında ilk məlumat isə eramızdan əvvəl I əsrə aiddir. Çində yabanı pambığın lifi eramızdan əvvəl II əsrdə istifadə edilmiş, VII-IX əsrlərdə isə mədəniləşdirilmişdir. Eramızdan əvvəl VI-V əsrlərdən Orta Asiyada, eramızdan əvvəl VII-IV əsrlərdən Zaqafqaziyada becərilir. Dünya toxuculuq sənayəsi üçün lazım olan lifin təxminən 50%-i pambıqdan tədarük olunur. 100 kq xam pambıqdan orta hesabla 30-35% lif əldə edilir. Lifdən müxtəlif parçaların toxunmasında işlədilən iplik hazırlanır, həmçinin avtomobil təkəri, torlar və kəmərlər üçün kordlar və sair istehsalında istifadə edilir. Pambığın çiyidindən yemək məhsullarında istifadə olunan yağ, həmçinin marqarin, qliserin, sabun, stearin, sürtkü yağları hazırlanır, tullantısı sellüloz, spirt, lak, linoleum, karton, kino plyonkası, izolyasiya materialları istehsalında istifadə olunur. Azərbaycanda pambıq Qədim Şərq ölkələri, əsasən İran vasitəsilə yayılmışdır. Mingəçevirdə arxeoloji qazıntılar zamanı V-VI əsrlərə aid yanmış pambıq kələfləri və çiyidi tapılmışdır. XV əsrdə Şamaxıdan Rusiyaya pambıq malları aparılırdı. XVIII əsrdə Mil-Muğan və Şirvan düzlərində geniş pambıq sahələri olmuşdur. XIX əsrin əvvəllərində Quba və Bakı əyalətlərində də pambıqçılıq inkişaf etdirilirdi. XIX əsrin 30-cu illərindən Azərbaycanda Misir və Amerika, həmçinin yerli Mazandaran və İrəvan pambıq sortları becərilirdi. XX əsrin əvvəllərində Rusiyanın toxuculuq sənayesinin mahlıca ehtiyacı ilə əlaqədar Azərbaycanda pambıq əkini sahəsi genişləndirilmişdir. Azərbaycanda 1913-cü ildə pambıq əkini sahəsi 100 min hektardan çox, pambıq istehsalı isə 65 min ton olmuşdur.



Azərbaycanda "ağ qızıl" adlanan pambıq iqtisadiyyatın aparıcı sahələrindən biridir. Lakin pambıqçılıq ötən əsrdə müvəqqəti tənəzzülə uğrasa da, hazırda bu sahəyə çox ciddi dövlət dəstəyi göstərilir. Qısa müddət ərzində pambıqçılığın inkişafı istiqamətində ciddi uğurlara nail olunub.

Kənd təsərrüfatının inkişafında xüsusi əhəmiyyət kəsb edən sahələrdən olan pambıqçılığa 1970-1980-ci illərdə çox böyük diqqət göstərilirdi və o vaxt əkin sahələrinin 22 faizi pambıqçılığa ayrılmışdı.

Lakin sonrakı dövrdə daha çox ərzaq təhlükəsizliyi məsələlərinə diqqətin ayrılması nəticəsində pambıqçılığın əkin sahələri azaldı. Son iki il ərzində pambıqçılığın bərpası istiqamətində görülən işlər bu sahədə əhəmiyyətli uğurların qazanılmasına səbəb olmuşdur.

1970-ci illərdə ölkəmizdə pambıqçılığın sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrlərdə Azərbaycanda 300 min ton pambıq tədarük edilirdi. 1981-ci ildə isə Azərbaycanda bir milyon ton pambıq yığılmışdır.

Müstəqilliyin ilk illərində isə pambıqçılıq, demək olar ki, özünün tənəzzül dövrünü yaşayırdı. Buna səbəb isə maddi imkanların məhdudluğu, ölkədəki ağır vəziyyət, hakimiyyətin təcrübəsiz insanların əlində olması, bir çox sahələr kimi kənd təsərrüfatının da inkişafı ilə bağlı heç bir tədbir görülməməsi, ümumiyyətlə, Azərbaycanda yaşanan xaos, anarxiya, hərc-mərclik idi. Yalnız 1993-cü ildən sonra - ulu öndərin yenidən hakimiyyətə gəlməsilə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da inkişaf dövrü başlandı.

Müstəqilliyin ilk illərində ölkə qarşısında çox ciddi problemlər var idi. Həmçinin, ölkəmiz ciddi şəkildə bazar iqtisadiyyatına keçidə başlamışdı və hesab edilirdi ki, kənd təsərrüfatı ilə bağlı məsələləri bazar iqtisadiyyatı prinsipləri tənzimləyəcək. Bu yanaşma müəyyən qədər doğru olsa da, dövlət dəstəyi olmadan kənd təsərrüfatının inkişafı da mümkün deyildi.

Statistikaya baxsaq, sadəcə 3 il öncə pambıqçılıq sahəsində çox acınacaqlı vəziyyətin yaşadığının şahidi olarıq. Cəmi 18 min hektarda pambıq əkilmişdir ki, bundan da cəmi 35 min ton pambıq tədarük edilmişdir.

2015-ci ilin sonlarından etibarən isə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində bu məsələyə ciddi diqqət yetirilmiş, 2017-ci ildə pambıqçılığın inkişafı ilə bağlı "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" qəbul edilmiş, bu işlərlə planlı şəkildə məşğul olunmağa başlanmışdır. İki il ərzində Azərbaycanda pambığın tədarükü 35 min tondan 207 min tona çatdırılmışdır ki, bu da iki il ərzində pambığın yığımınının altı dəfə artırılması deməkdir.

Pambıqçılığın inkişafına yönəlmiş Dövlət Proqramına əsasən, 2022-ci ildə xam pambıq istehsalının 500 min tona çatdırılması nəzərdə tutulur. Dövlət Proqramının əsas məqsədi ölkədə pambıqçılıq məhsullarına tələbatın ödənilməsi, pambıq emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, pambıq məhsullarının ixracının artırılması, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsi və bu sahənin inkişafının stimullaşdırılmasından ibarətdir.

Ölkəmizdə bu sahənin inkişafı üçün dövlət xətti ilə böyük həcmdə müasir texnika alınır, gübrə ilə təminat yaxşılaşdırılır, 70 faiz güzəştlə gübrələr verilir.

Əməktutumlu sahələrdən olan pambıqçılığın inkişafı ilə bağlı on minlərlə yeni iş yeri açılmış, son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşmışdır. Bu isə öz növbəsində işsizlik probleminin də aradan qaldırılmasında mühüm rol oynamışdır.

Pambıqçılıq həm çox gəlirli, həm də ixracyönümlü sahədir. Pambıqçılıq emal sənayesinə də böyük təkan verir. Pambıqçılığın yerli istehsala da böyük dəstəyi oldu. Ötən ildən başlayaraq Azərbaycanda pestisid istehsal edilməyə başlandı. Suvarma texnikasından istifadə nəticəsində məhsuldarlıq daha da artır. Mingəçevirdə Yüngül Sənaye Parkının yaradılması ilə 700-dən çox insan işlə təmin olunmuşdur. Burada, həmçinin 20 min ton ipliyin istehsalı nəzərdə tutulur. Bu da əvvəlki dövrdə istehsal olunan ipliyin, demək olar ki, yarısıdır. Bütün bu uğurlar isə əsas olaraq pambıqçılığın sürətli inkişafı ilə bilavasitə bağlıdır. Çünki bu fabriklər ancaq daxili xammal əsasında uğurla fəaliyyət göstərə bilər.

Pambıqçılığın inkişafına təkan verə biləcək bir sıra amillər də var ki, bunlardan biri də fermerlərə keyfiyyətli gübrələr verilməsidir. Bununla əlaqədar olaraq dövlət gübrələrin 70 faizinin pulunu öz üzərinə götürür. Digər mühüm məsələ texnika ilə tam təminatdır. Son iki il ərzində kənd təsərrüfatı texnikasına 300 milyon manatdan çox vəsait ayrılmışdır. Onun da böyük hissəsi pambıqçılıq texnikasıdır. Toxumlar da keyfiyyətli olmalıdır. Çünki toxumlardan, onların keyfiyyətindən çox şey asılıdır. Pambıqçılığın inkişafı və məhsuldarlığın artırılması üçün suvarmanın rolunu xüsusi qeyd etmək lazımdır və bu sahədə də böyük işlər görülür.

Pambıqçılığın inkişafında müsbət addımlardan biri də dövlət tərəfindən ayrılan subsidiyalardır. Hazırda pambığın satınalma qiyməti də artırılmış, 41 qəpikdən 60 qəpiyə qaldırılmışdır. Bu subsidiyaların verilməsi, alış qiymətinin artırılması dövlətimizin sosial siyasətinin əsas göstəricisidir.

Bu sahədə kadr hazırlığına da ciddi fikir verilməlidir.

2016-cı ilə qədər pambıqçılıq tənəzzülə uğradığı üçün bu peşəyə yiyələnmək istəyənlərin də sayı çox az idi. Bu sahə, demək olar ki, ciddi kadr təminatı ilə dəstəklənmirdi. Pambıqçılığın inkişafına dövlət dəstəyinin artırılması gündəmə kadr hazırlığı məsələsini də gətirdi. Bu problemin aradan qaldırılması üçün ümumtəhsil məktəblərində şagirdlər kənd təsərrüfatı üzrə peşələrə yönəndirilir.

Ümumiyyətlə, pambıqçılığın ölkə iqtisadiyyatı üçün çox böyük faydası var ki, bunlara məşğulluq, ölkəmizə valyuta gətirməsi, qeyri-neft sektoru, qeyri-neft sənayesinə müsbət təsiri, yerli istehsala təkan verməsi və s. aiddir. Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir.

**Mətanət Hüseynova**

# Bakıda Almaniya-Azərbaycan biznes forumu keçiriləcək



Alman-Azərbaycan Xarici Ticarət Palatası ("AHK Azərbaycan") oktyabrın 9-da Bakıda "Azərbaycanda enerji və İKT" mövzusuna həsr olunan Almaniya-Azərbaycan biznes forumunu təşkil edəcək.

"AHK Azərbaycan"dan bildiriblər ki, Almaniyanın Şərq Komitəsi və Şərqi Avropa İqtisadi Birliyinin dəstəyi ilə keçiriləcək tədbirin əsas məqsədi alman şirkətləri və onların azərbaycanlı tərəfdaşlarının layihə və təkliflərini təqdim etmək, eləcə də işgüzar əməkdaşlıq üçün mövcud imkanları müəyyənləşdirməkdir.

Forumun əsas mövzusunu enerji və İKT sektorlarında islahatlar və tərəfdaşlıq üçün perspektivlər təşkil edir.

Forumun açılış mərasimində Azərbaycan hökumətinin yüksək vəzifəli nümayəndələrinin iştirakı gözlənilir.

# İlin sonunadək 5 ölkədə ticarət və şərab evi açılacaq

Bu ilin sonunadək BƏƏ, Çin, Polşa, Qazaxıstan və Rusiyada Azərbaycanın ticarət və şərab evlərinin açılması nəzərdə tutulur.

Bu barədə iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov deyib. Nazir, həmçinin bu ilin 7 ayında qeyri-neft ixracının 14 faizə yaxın artdığını bildirib.



Qeyd edək ki, Azərbaycanın ilk ticarət evi 2017-ci ildə Belarusda açılıb.

# Azərbaycanda qızıl hasilatı artıb

Çovdar Filiz Emalı sahəsində istehsal nəticəsində 2017-ci ilin aprelindən indiyədək "AzerGold" QSC tərəfindən 81 min 100 unsiya qızılın, 120 min 500 unsiya gümüşün satışı nəticəsində 180 milyon manatdan çox gəlir əldə edilib.



Hazırda Daşkəsəndə Çovdar filiz emalı sahəsində aktiv hasilat işləri aparılır. Bu mədən "AzərGold" QSC-nin təhvil aldığı 6 saziş sahəsindən biridir. Burada fəaliyyət göstərən zavodda qızıl-gümüş tərkibli xəlitələrin tökülməsi üçün ən son texnologiyalar tətbiq olunur. Müxtəlif mərhələlərdən ibarət əməliyyat prosesləri dünya standartlarına tam uyğun aparılır.

Çovdar yatağının yeraltı sulfid fazasında isə istehsalata hazırlıq işləri görülür. İlkin nəticələrə görə, ən azı 6 il ərzində buradan 400 milyon manatdan çox gəlir əldə etmək mümkün olacaq. Çovdar filiz emalı sahəsinin aktiv hasilat olan hissəsi isə iqtisadi səmərəsi ilə yanaşı, yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrinin infrastrukturuna müsbət təsir göstərib. Yeni yollar çəkilib, xidmət sahələri yaradılıb, sakinlərin məşğulluğu təmin olunub.

Çovdar filiz emalı sahəsindən əldə olunan gəlirlərin hesabına QSC yeni yataqların inkişafı üçün kapital qoyuluşu həyata keçirir. Bu da dövlət büdcəsindən əlavə vəsait almadan fəaliyyətə imkan verir.

Hazırda bir neçə yataqda tədqiqat işləri aparılır. Bunlardan biri, Balakəndə yerləşən Filizçay yatağı nəinki regionda, hətta Avropada strateji əhəmiyyətə malikdir. Bu polimetal yataq gümüş, sink, qızıl, mis, qurğuşun kimi metallarla zəngindir. Filizçay mədəni təkcə sink ehtiyatlarına görə Avropada ilk onluğa daxildir. İlkin hesablamalara görə, istismar müddəti 12 il olan yataq ölkə iqtisadiyyatına 3 milyard manatdan çox gəlir qazandıracaq. Bu istehsal sahəsinin işə düşməsi ilə 2000-dən çox iş yerinin açılmasına imkan yaranacaq.

Naxçıvan Muxtar Respublikası və Göygöl rayonundakı perspektivli qızıl yataqlarında da tədqiqat işləri aparılır. Ölkənin əlvan metal hasilatına dair yol xəritəsi sənədinin hazırlanmasına da başlanılıb. Sənəd sovet hakimiyyəti dövründən arxivlərdə mövcud məlumatların müasir standartlara uyğunlaşdırılmasını, o cümlədən rəqəmsal formata salınmasını, mineral ehtiyatların beynəlxalq normalar əsasında yenidən hesablanmasını, mədənlər üzrə istismar mərhələləri üzrə fəaliyyət planının hazırlanmasını əhatə edəcək. Rəqəmsallaşdırma yataqların iqtisadi və ekoloji cəhətdən daha dayanıqlı və səmərəli idarəçiliyinə töhfə verəcək. Həyata keçirilən və perspektivdə olan bütün layihələr ölkədə qeyri-neft sektorunun dinamik inkişafının təminatına hesablanıb.